**Kürdəmir rayonunda Mərkəzi Kitabxana Sistemində tez-tez biri-birindən maraqlı tədbirlər keçirilir. Bu dəfəki tədbir isə çox maraqlı bir məsələdən-"sülh və dostluq" probleminin necə yaranması, qarşıya çıxan çətinliklər və onların həlli yolları barədə idi. Sülh korpusunun əməkdaşı Təranə xanım Cəfərovanın gəlişi hamını çox sevindirdi.**

# Sülh və dostluq

Əslində Təranə xanımın gəlişinin məqsədi kitabxana nəzdində fəaliyyət göstərən Amerikan guşəsində çalışan Sülh Komitəsi Gənclərin İnkişafı Layihəsinin Könüllüsünə baş çəkmək və işləri ilə tanış olmaq idi. Təranə xanımdan Sülh Korpusu haqqında müəyyən, bizə məlum olmayan bir sıra məsələləri öyrəndik.

Məlum oldu ki, ABŞ dövlət qurumu olan Sülh Korpusu ilk dəfə 1961-ci ildə prezident Con F.Kennedi tərəfindən yaradılmışdır. Onun əsas məqsədi amerikalı könüllülərinin xaricdə xidməti vasitəsilə dünyada sülh və dostluğu təmin etməkdir.

Son 45 il ərzində 190.000 könüllü dünyanın 139 ölkəsində insanlar arasında ünsiyyət yaratmağa kömək edib. Könüllülər xidmət göstərdikləri ölkədə Amerika xalqının müxtəlif irqi, etnik və dini təbəqələrinin mədəniyyətini və dəyərlərini təmsil edirlər və bölüşürlər.

ABŞ-a qayıtdıqdan sonra könüllülər digər xalqların mədəniyyəti, adət-ənənələri, dilləri barəsində öz şəxsi anlayışlarını araya gətirərək amerikalıların dünya barəsində anlayışının genişlənməsinə köməklik göstərirlər.

Onu da öyrəndik ki, Azərbaycan hökumətinin dəvətinə əsasən SK Azərbaycanda 2003-cü ildən hal-hazırkı vaxta kimi fəaliyyət göstərməyə başlayıb. Məhz 2003-cü ildə SK Azərbaycan Nümayəndəliyi ilk könüllülərini təhsil layihəsi üzrə qəbul etmişdir.

SK-da hansı layihələrin həyata keçirilməsi ilə maraqlandıqda öyrəndik ki, SK-nın Azərbaycan nümayəndəliyində üç layihə- İngilis dilinin tədrisi, İqtisadi inkişaf və Gənclərin İnkişafı Layihələri Azərbaycanın müxtəlif rayon və kəndlərində həyata keçirilir və fəaliyyətə başladığı gündən hal-hazırkı vaxta kimi 360 könüllü xidmət etmişdir. Bu il sevindirici haldır ki, 115 SK Könüllüsü rayon və kəndlərdə fəaliyyət göstərir.

Hər üç layihə müvafiq nazirlik- Təhsil, İqtisadi İnkişaf və İdman Nazirlikləri ilə imzalanmış rəsmi sənədlərə əsasən qarşılıqlı əməkdaşlıq şəraitində həyata keçirilir. Sevindirici haldır ki, hər üç layihə Amerikan Könüllüləri və yerli tərəfdaşlar tərəfindən paytaxtdan kənarda ölkə əyalətlərində həyata keçirilir.

Hər il müvafiq layihələr üzrə iki il müddətinə könüllülər qəbul olunur. Onlara gəldiklərinin 3 ayı müddətində Azərbaycan dilinə və mədəniyyətinə aid intensiv təlimlər keçdikdən sonra müraciət etmiş rayon müəssisələrinə ezam olunurlar. Azərbaycan nümayəndəliyində ilk icra olunan layihə ingilis dilinin tədrisi layihəsidir ki, burada könüllü azərbaycanlı ingilis dili müəllimləri ilə birgə dərs deməklə ingilis dilində şifahi nitqi və praktiki bacarıqları artırmaq üçün ingilis dili müəllimlərinə və tələbələrinə köməklik göstərmək məsələsi öz həllini tapıb.

Könüllülər bu layihəni əsasən təhsil müəssisələrində həyata keçirirlər. Təranə xanım İcmaların İqtisadi İnkişafı layihəsi haqqında məlumat verərək göstərdi ki, burada əsas məqsəd biznes yönümlü dövlət və qeyri-dövlət qurumlarına dəstək verməklə onların keyfiyyətli xidmət göstərmələrinə nail olmaqdır. İqtisadi və Kənd Təsərrüfatı bacarıqlarına malik olan Amerikan Könüllüləri hal-hazırda bu istiqamətdə yüksək nailiyyətlər əldə edirlər.

Gənclərin İnkişafı Layihəsi sahəsində Sülh korpusunun müxtəlif rayon və kəndlərdə 20 könüllüsü çalışır. Layihənin əsas məqsədi gənclərlə birbaşa və ya əlaqədar müəssisələrin vasitəsi ilə gənclərin sağlam həyat tərzi haqqında bilik və bacarıqlarını inkişaf etdirmək, gələcək iş dünyasına hazır olmaq, onların yaşadıqları icmada və cəmiyyətdə fəal olmaları üçün biliklər verməkdir. Bununla yanaşı, gənclərin asudə vaxtlarından səmərəli istifadələri üçün onları bir çox əyləndirici və eyni zamanda maarifləndirici tədbir və layihələrə cəlb edirlər. Yay düşərgələri, Amerikan və Azərbaycan bayramlarının qeyd olunması, idman yarışmaları, rəsm və inşa yazmaq yarışmaları, rəqs klubları, tamaşalar, Azərbaycanın müxtəlif bölgələrinə gənclərin səyahətlərinin təşkili və sairə məsələlər öz həllini tapmalıdır.

Ümumiyyətlə, bu layihənin həyata keçirilməsində məqsəd Azərbaycanın 2005-2009-cu illər üçün Gənclər Dövlət Proqramına öz töhvəsini verməkdir. Təranə xanım vurğuladı ki, hal-hazırda Kürdəmir şəhərində 3 könüllü fəaliyyət göstərir ki, bunlardan biri keçən il öz fəaliyyətini bitirərək ölkəni tərk etmişdir. Qalan iki nəfər Tod və Sara Frəns hal-hazırda rayonda həm təhsil, həm də gənclərlə iş aparmaq sahəsində çalışırlar.

**Sevindirici haldır ki, artıq neçə illərdir, Sülh Korpusunun xətti ilə rayondakı Mərkəzi Kitabxana Sistemində pulsuz ingilis dili kursları təşkil olunmuşdur. Həmin kurslar 3 ay müddətində ABŞ-dan gələn amerikalılar tərəfindən aparılır. Bu dərslər ingilis dilində şifahi nitqi və praktiki bacarıqların artırmaq üçün hər bir kurs iştirakçısına böyük dəstək olur.**

● **Məryəm ƏLİYEVA,**
***MKS-in metodika-biblioqrafiya şöbəsinin baş kitabxanaçısı***



# İSTEDADLI UŞAQLAR



**Kəlbəcər həmişə öz yetirmələri, parlaq istedada malik sənət sahibləri ilə seçilib. Bu ənənə indi bu gözəl torpağın övladları məlum hadisədən sonra respublikanın bütün bölgələrinə səpələnib məskunlaşmaq məcburiyyətində qaldığı bir zamanda belə davam edir.**

İcra hakimiyyətinin başçısı Vidadi Məhərrəmov və rayon mədəniyyət və turizm şöbəsinin müdiri Saday Musayevin xüsusi diqqəti sayəsində bu cür istedadlar aşkara çıxarılmaqla bərabər, həm də onların gələcək inkişafı qayğısına qalınır.

Buna bir nümunə kimi balaca xanəndə Hicran Cəfərquliyevi (Bakı şəhərində fəaliyyət göstərən Kəlbəcər uşaq incəsənət məktəbinin IV sinif şagirdi) və Rabil Tanrıverdiyevi (həmin məktəbin V sinif şagirdi) göstərmək olar. Hicran muğam festivalının qalibi kimi laureat adına və pul mükafatına, Rabil isə diploma layiq görülmüşlər. Hər iki şagird xüsusi istedada, yüksək bacarığa, güclü səsə malikdir.

Şəkildə siz bu istedadları xalq artisti Mənsum İbrahimov, şöbə müdiri Saday Musayev və məktəb direktoru Ədalət Əliyevlə bir yerdə görürsünüz...

● Pərvin MÖHLƏDDİNLİ